


# Hun-Quz... etnosoyluların əski Təbriz şəhəri



**Qismət Yunusoğlu,**
**Bakı Dövlət Universitetinin müəllimi**

***Avrasiya materikini tutan Türk dünyasında eyni etimoloji anlamda olan toponimlərin coğrafi məsafə baxımından xeyli uzaqlıqda yaranamsına səbəblər sırasında ilk növbədə minilliklər tarixi, mədəniyyət-təbəddülat mərhələləri, Türk xalqlarının "Böyük köçü", cəmiyyət-dövlət quruculuğunun, maddi-mənəvi etnotəməl dəyərlərinin, etnodemoqrafik tərkibin dəyişilməsi...kimi amillər öncül yer tutur.***



Sabir/Sovur/Sibir çölləri və yaylalarının, qarlı-buzlu və çay vadiləri ilə parçalanmış yurd ocaqlarının kökənli Hun-Quz...soykökünə irq və irs mənsubluğu olan qəbilə-tayfa toplumlarının yayıldığı yaşayış məkanlarının coğrafi adları əski Türk dillərinin şivə-dialekt fonetikasının, şifahi dil tələffüzünün təkamül və dəyişilmə xüsusiyyətlərini ifadə edib və e.ə. II-I minilliklərdə genişlənərək materikin bir çox ərazilərində kökənli toponimlərə çevrilmişlər. Nümunə kimi Abu-Su/Ob çayının ən böyük və gursulu sağ qolu olan İrtış çayı sahilində yerləşən Təbriz şəhəri/antrotoponimini göstərmək olar.

Eramızdan əvvəl VI əsrdə Qıpçaq çöllərini əhatə edən Sak-Quz-Oğuz....tayfa İttifaqlarının yenilməz sərkərdəsi və dövlət xadimi Tomirisin şərəfinə adlanan Tomiris/Toviris/Tavris/Təbriz....şəhəri toponimi etimoloji mənası ilə diqqəti cəlb edir.

Cənubi Sabir/Sibir çöllərində, Abu-Su/Ob çayı hövzəsinin yuxarı hissəsində-İrtış, Tobol, İşim...çayları boyunca (Hun-Quz..tayfa İttifaqları hüdudlarında) əski Türkdilli etnobirliklərin məskunlaşma əraziləri (yaşayış məntəqələri, coğrafi landşaft strukturu, kökənli tarixi-coğrafi yerlər..) ümumilikdə "Türk dünyası coğrafiyası"nın onomastika sahəsində tərkib hissəsi kimi xüsusi etimoloji-elmi təhlili tarixi, coğrafi və filoloji əhəmiyyət, ayrı-ayrı coğrafi hövzələr üzrə (Abu-Su/Ob-Yeni Su/Yenisey çayları arealı, Taymır-Yamal yarımadaları hüdudları) səciyyəvi protoTürk dil-ailə qrupları kəsb edir. Qədim dillərin (ket, evenk, yuq...) sintaksis və fonetik tərkib hissələrinin müasir şifahi-yazılı üslubuna uyğunluğu Paleolit dövrü Qulay arxeoloji mədəniyyət mərhələsinin milli-mənəvi irsinin ifadəsi kimi bir sıra arxeoloq-linqvistlər tərəfindən (Hun-Uygur əsilli etnoqraf və linqvistlər M.A.Kastren (1813-1852) və K.R.Donner (1888-1935), rus tədqiqatçıları V.İ.Anuçin (1875-1943), A.P.Dulzon (1900-1973), N.K.Karqer (1904-1943), E.A.Kreynoviç (1906-1985)...əsərlərində) qiymətləndirilib.

***Abu-Su/Ob-Yeni Su/Yenisey çaylarının yuxarı axarlarının cənub hissələri əski Türkdilli Hun-Uyğur dil ailələrinin (Aral/Ural və Altay etnoailə birliyinə aid) şəcərə soyları olan kelt, selkup (səlcuqların əcdadları), əvəng/evenk...qəbilə-tayfalarının tarixən məskunlaşma məkanları olduğundan əksər coğrafi adlar bu dillərin dialekt-şivə tələffüzünə (şifahi nitq üslubuna) və dil fonetikasına uyğun yaranmış, yabançı dil assimlyasiyasının təsirini xeyli dərəcədə qarşısını almışdır.***

Kelt dilində "qaranlıq", "tutqunluq", "qara rəng" mənasında "tom", "toma/tuma" sözləri işlənilir, türk-moğol etnolinqvistik təməlinə/dialektinə uyğun olaraq "böyük","iri", "uca"...mənalarına uyğundur.Hun-Quz tayfa birliklərinin xələfləri Böyük Kelt/MağaKet/Massaget qövmünün sərkərdəsi Tomiris ("Böyük Quz vələdi") məhz Cənubi Sabir/Sibirin Qıpçaq çöllərində, Xəzər dənizi və Araz çayı sahillərində sak, skif...tayfaları da daxil olmaqla e.ə. I mminilliyin ortalarında (e.ə.570-520-ci illər) hakimiyyətdə olmuş, Əhəməni/Fars hökmdarı II Kiri (e.ə.560-530) məğlub etməklə (Araz çayının ərazilərində) Türk dünyası coğrafiyasında şərəfli tarixi səhifəsini yazmışdır.

*Cənubi Sabir/Sibir çöllərində, Abu-Su/Ob çayı hövzəsinin yuxarı hissəsində-İrtış, Tobol, İşim...çayları boyunca (Hun-Quz..tayfa İttifaqları hüdudlarında) əski Türkdilli etnobirliklərin məskunlaşma əraziləri (yaşayış məntəqələri, coğrafi landşaft strukturu, kökənli tarixi-coğrafi yerlər..) ümumilikdə "Türk dünyası coğrafiyası"nın onomastika sahəsində tərkib hissəsi kimi xüsusi etimoloji-elmi təhlili tarixi, coğrafi və filoloji əhəmiyyət, ayrı-ayrı coğrafi hövzələr üzrə (Abu-Su/Ob-Yeni Su/Yenisey çayları arealı, Taymır-Yamal yarımadaları hüdudları) səciyyəvi protoTürk dil-ailə qrupları kəsb edir...*



Haşiyə. Təbriz, Tovuz, Oğuz...antrotoponimləri etimoloji anlamda Quz tayfa-qəbilə mənsubluğu olmaqla, qədim Türk dillərinin söz kökünün assimlyasiyasının ifadəsi kimi formalaşıb. Belə ki, keçən əsrin ortalarında ən geniş yayılan qadın adlarından Tövrüz/Töyrüz/Tovruz/Tovuz məhz Tomiris isminin dəyişilmiş formasıdır. Göründüyü kimi, Hun-Quz-Sak/Skif tayfa birliklərinə, eləcə də, yarım qol dil-ailə tərkibinə mənsub coğrafi məkan (bu hissədə Aral/Ural və Ulu Tanrı/Altay etnodil-ailə bölümlərinin qarşılığı təsdiq edilib) hüdudları isə Avrasiya materikinin orta və şimal enliklərini əhatə etmişdir.

***Aşağı Hun-Quz/Tunquz çayının (uzunluğu 2999 km) yeni-Su/Yenisey çayına soldan qovuşan hövzəsində yaşayan Ketlərin (Səlcuqlar/Selkuplar, Əvənglər/Evenklər...ilə birlikdə) əski protoTürk dillərinə mənsubluğu M.A.Kastren, N.M.Qrişina (1949), Y.Q.Kotorova (1954) ...tərəfindən ("Ket dilinin qramatikası", "Ket dilinin böyük lüğəti") qeyd edilmişdir...***

**(ardı gələn sayımızda)**